# Əvvəl Zaman İçində

Zahirə Cabir



F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

Zahirə Cabir

# ƏVVƏL ZAMAN İÇİNDƏ

(nağıllar və əfsanələr)



Bakı – 2022

**82-93(479.24)–УДК**
**Ш9(2=Аз)0-2-КБТ**

**Z33** **ZAHİRƏ CABİR**
**Əvvəl Zaman içində** (nağıllar və əfsanələr). Bakı, “Təhsil”, 2022, 56 səh.

Hər bir xalq öz xəyal, ümid və arzularından sehrli nağıl dünyası yaratmışdır. Kitabda toplanan nağıl və əfsanələr müəllifin zəngin təxəyyülünün məhsuludur. Nağıllar, əfsanələr bizi xalqın keçmişi və arzuları, məişəti və mədəniyyəti ilə tanış edir, ədalət və xeyirxahlıq aşılayır, çevik düşüncə və cəsarətli fikir yürütmək bacarığı tərbiyə edir. Nağıllar və əfsanələrlə uşaq yurdu tanıyır, onun tarixini öyrənir, əsrlərin yaddaşından süzülüb gələn folkloruna bələd olur.

Z $\frac{4702060205}{053}$ 2022

ISBN 978-9952-518-57-3

© “Təhsil”, 2022

## Ön söz

Qarabağda olmaq mənim kimi minlərlə azərbaycanlının arzusudur. Qarabağın azadlığı mənim arzularımın zirvəsi idi və şükür Allaha, buna çatdım. Şəhidlərin qanı bahasına, müzəffər, rəşadətli Azərbaycan Ordusunun zəfər yürüşü, eyni zamanda Ali Baş Komandan İlham Əliyevin siyasəti nəticəsində torpaqlarımızı düşmən tapdağından azad etdik. Torpaqlarımızla yanaşı tarixi abidələrimizi də zülm və əsarətdən qurtardıq. Daşı-torpağı sızıldayan abidələr də o diyarın insanları kimi zülmə və istilaya məruz qalmış, dağıdılmış, talan edilmişdir. Düşmən tariximizə, babalarımızdan bizə qalan tarixi abidələrə qarşı vandalizm aktı həyata keçirmişdir.

2008-ci ildə bir metodik vəsait yazmışdım, adı belə idi: “Gözlə bizi, Qarabağ”. Mən otuz il idi ki, daxilimdə göz yaşlarımı gizlədib buna özümü inandırırdım ki, bu haqq savaşında nəyin bahasına olursa olsun, biz qalib gələcəyik. İndi daxilimdəki göz yaşları üzümdəki sevinc göz yaşları ilə əvəz olunub. Bütün Azərbaycan xalqı bundan sonra Qarabağın dünyanın ən gözəl məkanı olacağına inanır. Bütün dünya bir daha əmin olacaq ki, Qarabağın hər bir guşəsi gözəldir və bu yurdun min illərlə yaşayan tarixi abidələri var.

Biz – mədəniyyətin çox böyük bir qolu olan kitabxana işçiləri gənc nəslə vətənpərvər ruhda yazılmış kitabları təbliğ etməklə, Vətənə olan böyük sevgimizi çatdırırıq.

Qarabağın zəfər dolu günlərində “Özümdən özümə məktub” yazdım. İstədim ki, bu məktubu kitabın əvvəlində verim, sonra nağıllara başlayım.

Müdriklər belə deyirlər: “Rəvayətlər, əfsanələr, nağıllar elə bir xəzinə, elə dəryadır ki, ən zərif incilər onun qoynunda tapılar. Ən dürlü yəqinlərin, ən dürüst həqiqətlərin işartısı orada görsənər”.

Qarabağ elində Vətən, yurd məhəbbəti, kişi hünəri, qadın sədaqəti və heyvan vəfası barədə o qədər nağıl, əfsanə, rəvayət var ki... Deyərdim ki, xalqın iftixarı da, könül qubarı da, pünhan arzuları da dağlara, daşlara köçüb, rəvayətlərə, nağıllara hopub, zaman-zaman yaşayır. Gəlin onları incələyə-incələyə bu qədim diyarın tarixini nağıllarda, əfsanələrdə axtaraq.

Qarabağ haqqında nağıl və əfsanələri yazmaqda məqsədim bu gözəl diyarın qədimliyini göstərməkdir. Müasir dövrdə Qarabağla bağlı nə qədər bədii əsərlər yazılsa da, nağıllar, əfsanələr həmişə öz hikmətini qoruyacaq, bahar çiçəkləri kimi təravətli olacaqdır.

**Müəllifdən**

**Özümdən özümə məktub**

(Esse)

Salam, əzizim. Necəsən? Bilirəm ki, məndən incimisən. Amma sənə yazdığım məktublar hamısı cavabsız qalmış, mənimlədir. O məktublar sənə çata bilməzdi, əsir idin. Bil ki, gözəlim, mən o məktubları sənə göz yaşlarım, ürəyimin qanıyla yazmışdım. Sənin necə də qəribə taleyin var?! Ömrümüzə qara yazılan illərdə hara getdimsə, səni axtardım, aradım... Gecələr ulduzların arasında, çiçəkli, yamyaşıl yamaclarda, dərələrdə, bulaqların şırıltısında, əsən küləklərdə, dağların zirvəsində, sevən könüllərdə, dərdli-qəmli ürəklərdə axtardım səni. Tapmadım...

Gözəlim! Sən mərdliyinlə, qürurunla öyünürdün. Sənin gözəlliyinə kimlər məftun olmamışdı?! Yadlar gəldi, səni məndən almaq istədilər, ala bilmədilər. Səni sıldırım, əlçatmaz yerlərə apardım. Döyüşdüm. Nə qədər səni sevənlər qanlarını tökdülər, qoymadılar ki, Azərbaycan gözəli yadlar əlinə keçsin.

Qaşı qara, gözü qara, gözəllər gözəlim! İlk baxışdan sənin qara gözlərin, baxışın yağının gözündən qaçmadı. Səni əldə etmək üçün qəsdinə durdular. O müdhiş qaranlıq gecədə Şeytan mələk biçimində hiyləyə əl atdı. Yer titrədi, göy guruldadı, əcaib əjdaha sifətlilər səni əsir götürüb igidlərin tikdiyi qalada saxladılar. O qala şüşədən idi. Ona görə elə qala tikilmişdi ki, bir gün şüşə sınarsa, çiliklənən o şüşələr gözəlimi oğurlayanların üstünə tökülüb onları məhv etsin. Amma onlar səni məhv etmədi, əsir saxladı, tabe olmadığını görüb sənə zülm etdilər. Əllərin əlimdən uzaq düşdü. Ruhumu ruhuna bağladım, sənin həsrətinlə ağladım, ah-fəğan etdim. Leylini sevən Məcnuntək tənhalığa üz tutdum. Sevdiyin çiçəyi axtardım, şehsiz çiçəklərə rast gəldim.

Qəmdən, kədərdən uzaq yaranmış mələklər də ağladı, göz yaşı tökdü o gecə.

Sənin iniltini hər gecə eşitdim. Səsin həmişəki səs deyildi, zəngulə vurmurdu. O mehriban və səmimiyyət dolu səsində indi ağrı, kədər, inilti vardı, xəstə olduğunu duydum – sən heç vaxt bu əzabları mənə deməzdin, bildirməzdin!

Ölmək istədim, ölə bilmədim. Gözlər gəldi gözlərimin önünə. Hara gedirsən, özünü unudub hara gedirsən?! Özünə kənardan baxa bilməyən o gözləri kor et əvvəlcə. Qəlbim parçalanıb muma döndü. Sənə olan sevgim sönməyən şama dönüb illərlə yandı. Qanlı göz yaşları axdı yanaqlarımdan. Məni yaşadan yalnız sənə olan sevgim oldu.

Ah, necə oldu axı, mən sənin içində qovrulan o ağrılı ruhunu duya-duya yaşadım. Yer xəcalətindən bir daha ətirli gül bitirmədi ki, gözəlim o gülün ətrini duymayacaq. O gülün yerində tikanlar bitdi yalnız.

Tanrım mənə dözüm verdi. Tanrıya güvəndim, möcüzə gözlədim. "Sevginin məhv olduğu yerdə nifrət daha da güclənər", – deyirlər. Üzümüzə nurlu sabahın açıldığı bir yaz səhərində dedim: "Daha bəsdir!" Hayqırdım... Dağlar bu səsdən diksindi, yer, göy yandı, töküldü.. Yenə də sənə çata bilmədim. Yağı sənin qarşında çal-çağır edib mənə yanğı verdi. Bu dərdə necə dözdüm. Qanlı qaladan səni necə geri alacağımı fikirləşdim, fikir yollarında azıb qaldım, bir an keçənləri unudaraq yenə yaşamaq istədim. Bacarmadım. Necə yaşamaq olar? Günəşə həsrət qalan kor insan kimi yalnız bu kəlmələrlə özümü sakitləşdirdim: "Gözlə, gələcəyəm! Mütləq səni azad edəcəyəm!" Əllərimi uca Yaradana uzadıb möhlət istədim. Tanrıdan bir səs gəldi: "Səbr et, o gün gələcək". Səbr etdim, səbrimə "qorxdu" dedilər.

Bir nurüzlü pəhləvan peyda oldu, bəyan etdi ki, mən Azərbaycan gözəlini o əjdahanın əlindən qurtaracağam. Ağatlı pəhləvan çox çətin bir yola çıxdı. Vətən torpağını sevənləri öz ətrafına topladı, onları qanlı döyüşə səslədi. "Allahu əkbər", – deyib, yağı üstünə atıldı. Qeyrətli, namuslu Azərbaycan gözəlini onların əlindən aldı. O zəfər günü Şiş dağlarda sənin xilasına gələnlərə Rəbbim kömək etdi. Duman dağlara üz tutan xilaskarlarını düşməndən gizlətdi. Nəhayət, sən əsirlikdən xilas oldun.

Ey Azad Azərbaycanın məğrur gözəli! Başını dik tut. Qoy bütün dünya bilsin ki, Sən azadsan! Yaralarını sağaldacaq məlhəmlərin hazırdır. Tez bir zamanda sağalacaq, yenə də mənə qayıdacaqsan. Artıq vətənsevənlər od nəfəsləriylə sənə uzanan xain əlləri yandırdılar, kül etdilər. Həmin anda sən od saçan gözlərə, qaynar nəfəslərə baxıb, zənciri qırılan qollarını irəli, mənə uzatdın: "Mən səni gözləyirdim, inanırdım ki, gələcəksən. Sənin eşqinə, sevginə inanırdım. Sən tikanlı yollarla ayaqyalın gəldin yanıma, mənim xilaskarım. İndi əllərimi sənə uzadıram, tut əllərimdən, məni ayağa qaldır. Mən azadam, sənə qayıdıram. Bizləri ayıran yollar artıq bir ünvandadır. Biz birlikdəyik!"

Zülmət dolu acılı günlər sevinclə əvəz olundu. İçimdən bir səs gəldi, bağırdım: "Daha yanındayam, səni heç kəsə bir daha verməräm!"

**Hörmətlə:**
**Səni sevib gözləyən**


Şuşa

# ŞUŞA NAĞILI

Sizə haradan xəbər verim, qarafikirlilərdən, oğrulardan, yalançılardan, qonşuya xain olanlardan, vəfasızlardan, əhdinə əməl etməyənlərdən, buzov minib çay keçənlərdən, yaba ilə dovğa içənlərdən, xoruz belində bostan əkənlərdən, daha nə bilim nədən, kimdən... Lənət olsun quyruqlu yalana, rəhmət olsun quyruqsuz düzə. Rəhmət yazana, lənət pozana. Söz qalsın, insan getsin, yaxşılıq qalsın, pislik getsin. Dost var olsun, düşmən puç olsun, ağıllı yesin, ağılsız hesablasın.

Sizə kimdən deyim, nədən danışım. Biri vardı, biri yoxdu, başı bəlalı şiş dağlar qoynunda bir gözəl vardı. Adına Şuşa deyirdilər. Pakqəlbli, şüşə kimi şəffaf, qaşı qara, gözü qara, ay üzlü gözəl. Ona baxan, bir də baxım deyərdi. Aya deyərdi ki, sən çıxma, mən çıxım. O sanki Qarabağ üçün doğulmuşdu. Bir-birini görən gündən aşiq idilər. Qarabağ onu dəlicəsinə sevirdi. Bağında sehrli bir gül bitirmişdi ki, dünyanın heç bir yerində o güldən yox idi. Bu gülü yalnız Şuşa tanıyırdı. O hər gün solmayan bu gülü qoxlayar, Qarabağın ətrini duyar, onunla fəxr edərdi.

Amma deyirlər ki, sən saydığını say, gör fələk nə sayır. Şuşanın gözəlliyini görənlər onu Qarabağın könlündən qoparmaq istədilər. Amma Qarabağ son damla qanına qədər döyüşdü, onu yadlara vermədi. Uzun döyüşlərdən sonra onlar öz sevdalarından əl çəkdilər.

Qonşuluqda eli-obası bilinməyən, Qarabağın elinə pənah gətirmiş Armen adlı bir xain yaşayırdı. Qarabağ öz elində Armenə ev tikmək üçün yer vermişdi.

Bir gün Armen Şuşanın gözəlliyini görüb onu nəyin bahasına olursa olsun, Qarabağın əlindən almaq istədi. Qarabağın gücünə bələd olanda isə hiyləyə, fitnə-fəsada əl atdı. Yavaş-yavaş Qarabağla dost oldu, canından keçməyə hazır olduğunu ona göstərdi. Armen Qarabağın saf qəlbinə yol tapdı, onun bütün sirlərini öyrəndi. Şuşanın yaşadığı qalanın gizli yollarını, sehrli açarların yerini bilən xain bir gün xəyallarında arzuladığı Qarabağın sevgilisinə qovuşmaq ümidi ilə onu ələ keçirdi. Qalaya hakim oldu. Qarabağın əkdiyi sehrli gülü Şuşaya göndərdi. Amma Şuşa gülü yalnız Qarabağın əlindən alıb qoxlayardı. Və o gül şehi üstündə olardı, heç vaxt solmazdı. Amma Armenin əli ilə dərilmiş gül solmuşdu. Şuşa xainin hiyləsini anladı. Təslim olmadan özünü şiş qayalara çırpdı, öldürmək istədi, ölə bilmədi, düşmənlər onu tutub əsir götürdülər, əl-qolunu zəncirlədilər. O gündən Şuşanın ürəyi qan, gözləri qan oldu. Sevgilisinin onu əsirlikdən qurtara biləcəyi günü gözlədi. Qarabağ isə şahinlərlə xəbər göndərdi, onu gözləməyə, təslim olmamağa, bir gün qovuşacaqlarına əmin etdi. Xain düşmən hər gün Şuşaya sovqatlar göndərir, onu yeni hiylələriylə ələ almağa çalışırdı. Şuşa " Ölərəm, sənin olmaram" – dedi və ümidlə Qarabağı gözlədi.

Nəhayət, bir gün Qarabağ yurdunun ərənlərini başına topladı. Onlar dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi Qalaya yetişdilər. Qarabağ üzünü Yaradana tutub dedi: "Ədalətli Rəbbim, mənə kömək ol. Məni ya öldür, ya da Şuşama yetir!"

Yaradan onun haqq səsini eşitdi. Qalada qanlı döyüşlər getdi. Ər igidlər Qarabağla birgə mərdliklə, cəsarətlə vuruşdular, od saçan nəfəslərilə düşməni yandırıb kül etdilər. Qarabağ xain düşməni tapıb öz əllərilə məhv etdi, gözəlinə qovuşdu:

– Gözəlim, Şuşam! Sənin həsrətindən nuru öləziyən, az qala kor olan gözlərimə işıq gəldi. Elə bilirdim ki, ölmüşəm, səni görüb dirildim.  Sevincdən ağladım, hıcqırdım. Bizim qovuşmağımıza ruhlar da şad oldu.  Qulağıma Xanın, Bülbülün zəngulələri, ecazkar avazları gəldi. Üzeyir Qələbə marşını çaldı. Vaqifin qoşmalarını, Xan qızı Natəvanın qəzəllərini, Cıdır düzündə şahə qalxan köhlən atların kişnərtisini eşitdim.

– Könlümün məhbubu Şuşam! Səninçün o qədər darıxmışdım ki... Şükürlər olsun ki, Tanrı bizi bir-birimizə qovuşdurdu.

Beləcə, Qarabağ Şuşaya qovuşdu. Göylər sevincdən ağladı. Şuşa nağılı belə bitdi. O toy-büsatlı gecədə mən də oldum. Yedim, içdim, şənləndim. Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri də nağılı söyləyənin. Sən sağ, mən salamat. Sən yüz yaşa, mən isə iki əlli. Hansı çoxdur, özünə götür.



# AĞ DAMLI EVLƏRİN ÇÖRƏYİ

(nağıl)



Qulaq asın, danışım.

Biri var idi, biri yox idi, Yaradan var idi, bəndəsi yox idi. Çox qədimlərdə, gözəl bir diyarda dünyada heç bir yerdə olmayan, nadir sarı buğdası ilə şöhrət tapmış bir məmləkət vardı. Bu məmləkətin insanları çörək verən idilər. Üz tutub bu yurda gələnləri heç vaxt əliboş, çörəksiz qaytarmazdılar. Sarı-qızılı taxıl zəmilərində çalışan zəhmətkeş insanlar becərdikləri halal nemətdən yeyər, halallıqla da dolanardılar. Onlar bu zəmilərin sapsarı dənlə dolu sünbüllərini oraqla biçər, sərib günün altında qurudardılar. Sonra taxılı çarçarla döyər, buğda çəltiyindən ayırar, sonra onu aparıb dəyirmanda üyüdər, unu çuvallara yığardılar. Bu dəyirmanda hər gün yüz çuval un üyüdülərdi. Yaxın-uzaq ellərdən tacirlər bu diyara buğda unundan bişirilən ətirli çörəkdən dadmaq həvəsilə gələr, dəvələrini un çuvalları ilə yükləyərdilər.

Dəyirmanın yanında karvansara var idi. Karvansara sahibinin övladı yox idi, amma yanında Tuncay adlı bir şagirdi vardı. Karvansara sahibi çox zalım və xəsis idi. Gələn zəvvarlardan gecələmək üçün çoxlu pul alardı. Şagirdi sahibinin hərəkətlərindən utanar, lakin heç bir söz deyə bilməzdi. Əlindən gələn mehriban təbəssümlə tacirləri qarşılayıb, yola salardı.

Bir gün xəsis karvansara sahibi xəstələndi, məmləkətin hər yerindən təbiblər gətirildi, lakin dərdinə bir əlac tapılmadı. Şagirdi ona dedi:

– Cəsarətimə görə bağışlayın, amma xəstəliyiniz daxilinizdə insanlara bəslədiyiz kin, paxıllıq və xəbislikdəndır. Bura çörək ətri ilə gələnlərə elə qiymət deyirsiniz ki, gəldiklərinə peşman olurlar. İnsanlarla belə rəftar etmək olmaz. Qazandığınız bir parça çörəyi Allah əlinizdən alıb, sizi kor qoyar.

Xəsis karvansara sahibi bir qədər fikirləşdi, gördü ki, gənc şagirdinin sözündə həqiqət var. Odur ki, əmr etdi:

– Bu gündən bura gələn bütün zəvvarlara bir çuval əlavə un verilsin, karvansarada gecələmək üçün isə çox cüzi ödəniş tələb edilsin.

Az sonra karvansara sahibi tacirlərin duası ilə sağalıb ayağa qalxdı.

Günlər keçdi, bu diyara üz tutanlar çörək verən karvansara sahibindən, sehrli buğda üyüdən dəyirmandan hər yerdə söz açdılar, bu məmləkətin sorağı mahaldan-mahala yayıldı.

Bu diyardakı evlərin damları ağ idi. Hər səhər günəş öz qızmar şəfəqlərini sehrli buğda əkilən zəmilərin üstünə salardı. Dənlə dolu sünbüllər yetişər, ağırlıqdan torpağa baş əyərdilər. Bu məmləkətin insanları evlərin damlarını ağ əhənglə əhəngləyərdilər ki, yayda sərin, qışda isti olsun. Ağ damlı evlər məmləkəti halal çörəkli bir yurd yerinə çevrilmişdi.

Ağ damlı evlərin diyarına haradansa gəlib xəbis bir tayfa yerləşmişdi. Karvansara sahibi onlara kömək etmiş, ac qalmağa qoymamışdı.. Amma dad qədirbilməz qonşu əlindən. Bu tayfanın qızlarından birinin karvansara sahibinin şagirdinə gözü düşmüşdü. Gənc şagird isə öz elinin qızını – Ağcanı sevirdi. Bunu bilən paxıl qonşu qızı safürəkli

Ağca ilə dostlaşdı. Hər gün onları bir-birindən ayırmaq üçün yeni hiyləgərliklərə əl atdı.

Nəhayət, günlərin bir günü Tuncay Ağca ilə gizlicə görüşərkən karvansarada yanğın baş verdi. Karvansara yanıb tamam kül oldu. Günahı Tuncayda gördülər. Hiyləgər qonşu qızı onun üzünə dayandı ki, yanğından qabaq karvansaraya gəlmiş, Tuncayı orada görmüşdür. Yəqin ki, karvansaranı da o yandırıb. Hamı diliqurumuş qonşu qızının sözünə inandı, Tuncayı daş-qalaq edib, eldən qovdular. Ağca gözüyaşlı qaldı.

Tuncay bu tənələrdən, haqsızlıqdan başını götürüb getməkdə olsun, sizə kimdən deyim, kimdən danışım, karvansara sahibindən. O, Tuncayın karvansaranı yandırmasına inanmaq belə istəmirdi. Odur ki, axtarıb bir falçı tapdı, fal açdırdı. Falçı söylədi ki, Tuncayın bu işdə heç bir günahı yoxdur, yanğını bu məmləkətə təzə köçən bir qız törətmişdir. Tuncayın başı üstündə şamlar yanır. O öz elinə qayıdacaq və bu yurda sahib çıxacaq, şah olacaqdır.

Hə, Tuncay öz el-obasından, sevgilisindən gözüyaşlı ayrılıb yola düşdü. Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi, diz qabırğada, ayaq üzəngidə getməyə başladı. Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib cinlər diyarına yetişdi. Cinlər onu görən kimi üstünə atıldılar:

– Ey bəni-insan, sən kimsən, nəçisən? Nə cürətlə bura gəlib çıxmısan?

Tuncay pis insanların əlindən qaçdığını söylədi və yalandan bu diyarı axtarıb-tapdığı üçün sevindiyini deyib, onları inandırdı. Cinlər gecələr oğurluqla xəzinə yığar, çörəyin nə olduğun bilməzdilər. O, cinlər diyarında yaşamağa məcbur oldu və əl

altından yavaş-yavaş onların bütün sirrini öyrənməyə başladı. Dostlaşdığı bir cinin üstünə dəmir sancaq taxdı ki, qaçmasın, ona yer şumlatdı, taxıl əkdirdi, ev tikdirdi. Dönüb oldu cinlərin ən inamlı, yaxın adamı. Cinlər padşahı da Tuncayın ağıllı, bacarıqlı olduğunu görüb, onu özünə vəzir təyin etdi..

Zaman sürətlə keçdi, Tuncay öz eli-obası üçün çox darıxdı. Hər gecə yuxusunda anasını, sevgilisini gördü. Öz mahalına, elinə dönmək istədi. Bir gün cinlərdən öyrəndiyi cadu-əfsunu oxuyub, görünməz oldu, cinlərin yığdıqları bütün xəzinəni ələ keçirdi. Dostlaşdığı cinin belinə minib onu evlərinə aparmağı əmr etdi. Beləcə, birillik yolu bir günə gəlib, doğma yurda yetişdi. Bir evdə axşamladı. Ev sahibindən öyrəndi ki, karvansara sahibi dünyasını dəyişmiş, bütün malını-madarını Tuncaya vəsiyyət etmişdir.

Səhər açıldı, Tuncay şəhər əhlinin şəhər meydanına tərəf axışdığını gördü. O da onlara qoşuldu. Bu vaxt bir quş gəlib oturdu düz onun başında. Sən demə, bu şahlıq quşu – Humay quşu imiş. Şah ölmüş, şəhər əhli özlərinə yeni şah seçmək üçün quşu üç dəfə uçurtmuş, üçündə də quş gəlib Tuncayın başına qonmuşdu. Beləcə, camaat Tuncayı taxta çıxardır, özlərinə şah seçirlər. Tuncay şah seçiləndən sonra hiyləgər qonşu qızını qatıra bağlayıb, ölənə qədər sürütdürür, Ağca ilə kəbin kəsdirib, qırx gün, qırx gecə toy edir, ömürlərinin sonuna qədər şad-xürrəm yaşayırlar. Çörəyi bol olan ağ damlı şəhərin sakinləri ağıllı şahları ilə firavan yaşayıb, ömür sürürlər.

Burada nağıl tamama yetdi, hamı durub evinə getdi. Mən də ağ damlı evimə getdim. Evə girdim, göydən üç alma düşdü, üçü də öz ağzıma düşdü, nə edim ki, sizə çatmadı.

Hə, nağılsevərlər. Söylədiyim nağılda  həqiqət də var. Sonralar ağ damlı evlərin elində – Ağdamda həmin dəyirmanın və karvansaranın yerində Çörək Muzeyi yarandı. Çörəyi göz bəbəkləri kimi qoruyanlar, illərlə bu sehrli dəyirmanı da qoruyub, yüz illər tarixi olan abidəyə çevirdilər. İnanırıq ki, yenə də uzaq ellərdən insanlar həmin yerlərə çörək ətrinə gələcəklər.



# CANYATAQ-GÜLYATAQ QIZILI

(nağıl)

Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər köhnə hamam içində, hamamçının tası yox, baltaçının baltası, burdan bir tazı keçdi, onun da xaltası yox. Nağıl-mağıl bilmərəm, bilsəm də, söyləmərəm, xandan gəlmiş nökərəm, dinmə, böyrünü sökərəm.

Biri vardı, biri yoxdu. Bir padşah vardı. Onun Can adlı aman-zaman bir oğlu vardı. Can igidləri başına yığıb ova gedər, at çapıb, ox atardı. Bir gün ov dalınca düşərkən meşədə çırpı yığan gözəl bir qızla rastlaşdı. Qız nə qız, görən bunun camalına heyran qalardı, qaş qara, gözlər sürməyi, boyu sərv. Qız onu görçək ürkək baxışları ilə tez şələsini götürüb getmək istədi. Can atdan düşüb qızdan hansı obadan olduğunu soruşdu. Qız heç bir söz demədi. Yalnız qorxu və həyəcanla icazə istəyib ordan uzaqlaşdı. Can xeyli vaxt qızın gözəlliyi qarşısında donub qaldıqdan sonra özünü birtəhər ələ alıb evə dönür. Qızın dərdindən rəngi saralır-solur, bir an belə onu unutmur. Xəstələnir. Padşah məmləkətin loğmanlarını sarayına dəvət edir, oğlunun dərdinin əlacını soruşur. Onlar oğlanın xəstəliyi ilə bağlı heç bir söz deyə bilmirlər. Bir dərviş gəlir, Cana baxır və padşaha bildirir ki, oğlunun xəstəliyi sevgi xəstəliyidir. Oğlunu sevən ata Candan onun kim olduğunu soruşur. Can isə gördüklərini danışır, qızın hansı obadan olduğunu bilmədiyini deyir. Atası söz verir ki, o qızı tapıb, Canı onunla evləndirəcək. Atasının ona mərhəmət göstərdiyini görən Can o qızı axtarmaq eşqilə sağalır, ayağa durur. Yenə də meşəyə üz tutur, axtarır, taqətdən düşür, yorulur. Yaxınlıqdakı çaya gedib yuyunmaq, bir az dincini almaq istəyir.



Hə, sizə kimdən deyim, kimdən danışım, Canın meşədə rast gəlib, gördüyü qızdan. Bu qızın adı Gül idi. Körpəlikdən anasını itirmiş, atası dul qadınla evlənmişdi. Analığı ona göz verib, işıq vermirdi. Gününü göy əskiyə bükmüşdü. Evin bütün ağır işlərini ona gördürürdü. Gül hər gün çaya gedir, ağır səhəngini doldurur və çiyninə alıb aparır, evlərinə su daşıyırdı. Ögey ana Gülün günü-gündən gözəlləşdiyini görüb daha da qəddarlaşırdı. Bütün günü onu işlətməkdən, söyməkdən, təhqir etməkdən həzz alırdı.

Gül də meşədə cavanı gördüyü gündən könlünü ona salmışdı. Hər gün çaya gəlir, çayın kənarında məskən salmış salxım söyüdün altında oturub, dərdini çaya danışır, dərdləşirdi. Günlərin bir günü, Gül yenə də çaya gəlib səhəngini doldurdu. Gözlərini qaldıranda qarşısında Canı gördü. Gül özünü biranlıq itirib, çaş-baş qaldı. Can onu axtardığını, onu gördüyü gündən yalnız onun eşqilə yaşadığını, sevdiyini bildirdi. Gül də ona biganə qalmadığını söylədi. Nəhayət, Can padşaha istədiyi qızdan danışdı, ona bir könüldən min könülə aşiq olduğunu dedi. Padşah oğlu ilə razılaşdı və Gülü oğlu üçün istəməyə elçi göndərdi. Ögey ana padşahın oğlunun Gülü sevdiyini eşidib hikkəsindən, paxıllığından az qaldı ki, çatlasın. Dərdə düşdü. Bütün günü fikirləşdi ki, nə etsin?! Axır ki tapdı. Gələn elçilərə qızının əvəzində qızıl yatağı istədiyini və bu yataqların yalnız Canın əli ilə tapılmasını arzuladığını dedi. Əri nə qədər onu bu fikrindən daşındırmaq istədisə, dediyindən dönmədi. .

Can, bu yolun gedər-gəlməz olduğunu bilsə də, sevdiyi qızın yolunda qızıl yatağı axtarmaq üçün yola düşdü. Yorulmadan, gecə, gündüz bilmədən çayın qırağındakı qayalarda qızıl yatağı axtardı. Gülün eşqiylə sıldırım, adamkeçməz qayalarda külüng vurdu. Nəhayət ki, axtardığını tapdı. Həmin vaxt Gül Canı görmək ümidilə çayın kənarına gəlmişdi. Çayın kənarındakı qayalardan Canın külüngünün səsini

eşitdi. Külüng səsi ara verəndə Gül aşağıdan onu səslədi. Can Gülün səsin eşitdi, tez sevgilisinə qovuşmaq, qayaların üstündən sanki uça-uça aşağı enib, ona qızıl yatağı tapdığını söyləmək istədi. Elə bu vaxt ayaqları yerdən üzüldü, qayadan sürüşdü, çaya düşüb, daşlara çırpıldı. Gül onu dizləri üstə aldı, sevgilisinə son anda doyunca baxdı, qayaların üstünə çıxdı, özünü qayadan atmaq istədi. Bu vaxt bir pəri peyda oldu. Onun əllərindən tutub, qayadan aşağı endirdi. Qıza dedi ki, yaxınlıqdakı qalanın arxasında yerdən bir bulaq çıxır, o bulağın suyu dirilik suyudur. Get o bulaqdan su götür, Canın yaralarına tök, Can sağalacaq. Gül pərinin dediyi kimi etdi, axtarıb bulağı tapdı, dirilik suyundan gətirib Canın yaralarına tökdü. Can gözlərini açdı. İki sevgili yenidən bir-birinə qovuşdu.

Bəli, padşah bu xəbəri eşidən kimi bütün şəhəri xalça-palazla bəzədi. Böyük sevinc, coşqu ilə çıxdı oğlunun, gəlininin qabağına. Gülün ögey anası bunları gördü, qan vurdu başına, paxıllıqdan bağrı çatlayıb öldü.

Padşah oğluna qırx gün, qırx gecə toy elədi. Onlar yedi-içdi, yerə keçdilər. Siz də yeyin-için, kama çatın. Göydən üç alma düşdü. Biri mənim, biri özümün, biri də nağıl danışanın.

İllər keçdi. Həmin qızıl yatağı Canyataq-Gülyataq adı ilə məşhurlaşdı. Onların sevgi dastanı bu gün də dillərdə gəzir. Can və Gül bir-birini sevən bütün aşiqlərə bu qızıl yatağından pay verir.

Danışdığım nağıl Kəlbəcərdəki Canyataq-Gülyataq qızıl yatağı haqqındadır. O yer sevgililərin qovuşduğu yerdir. Ordan nə qədər qızıl daşısalar da, həmin yataqdan qızıl tükənməz, çünki o müqəddəs yer – əbədi sevginin yatağıdır. Oradan çıxan qızıldan həmin yerlərin insanları xeyir görər. Xaincəsinə əl uzadanların apardıqları qızıl isə onlara xeyir gətirməz, gilə dönər, palçığa dönər, ayaqlara yapışar.



## AĞOĞLAN NAĞILI

Hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər, köhnə hamam içində. Qarışqa şıllaq atdı, dəvənin qıçı batdı. Milçək mindik, körpü keçdik, yabaynan dovğa içdik. Şah Abbas cənnət məkan, tərəziyə verdi təkan.

Qədim zamanlarda bir cavanın bulaq başında bir qıza gözü düşür. Onun dərdindən dəli olur. Nəhayət, öyrənir ki, bu qızı başqa biri sevir, odur ki, artıq bu dərdə bir çarə tapa bilmir, qıza namə göndərir ki, nə vaxt məni sevib, məni tapmaq istəsən, ayağına dəmir bir çarıq geyib, əlinə dəmir əsa alarsan. Çarığın altı yırtılıb, əsanın ucu əyiləndə məni ancaq gəlib taparsan. Qərəz bu sözü deyib yola düzəlir. Meşələr keçir, ormanlardan su içir, gəlib yad, gözəl bir məmləkətə yetişir. Ulu Yaradan bu məmləkəti elə bil özü üçün, özünün mələkləri üçün yaratmışdı, eşqin, məhəbbətin coşub-çağlayan vaxtı yaratmışdı. Gözəl meşələri, təmiz havası, saf suları, ceyranları-cüyürləri, dağ keçiləri, şəlalələri, sərt qayaları, başı ağçalmalı dağları, dağ başında düzənləri, ucsuz-bucaqsız yaylaqları, şaxtada qaynayan isti bulaqları, dünyanın heç yerində tapılmayan təbii gül-çiçəkləri, qırmızı palıd ağacları, göydə süzən qartalları olan bir məmləkətə gəldiyi üçün özünü xoşbəxt sayırdı. Cavan oğlan çox gözəl bənna idi. Az keçmir ki, gənc səyyah yerli əhalinin hörmətini qazanır, camaat ilə qaynayıb-qarışır. Təbiət vurğunu olan gənc burada yerli əhalinin köməyi ilə bir məbəd tikir. Yalnız ibadətlə



məşğul olmağı, Allaha dua etməklə yaşamağı üstün tutur. Çayın sahilində saldığı məbəd bu yerlərə pənah gətirən insanlar üçün bir sığınacaq olur. Gənc səyyah yerli adamlardan dərisinin rənginin ağlığına görə seçildiyindən onu Ağoğlan çağırırlar, onun tikdiyi məbədə Ağoğlan məbədi, çaya da Ağoğlan çayı deyirlər.

Sizə kimdən deyim, həmin Ağoğlanın görən andan sevdiyi qızdan. Sən demə, qız da onu sevmişdi. Odur ki, atası onu başqasına ərə vermək istəyəndə onu sevmədiyini söyləyir. Qıza elçi düşən hər bir oğlana yox cavabı verir. Bunu görən ata hirslənir, ifritin köməyi ilə onu tilsimləyir, quşa döndərir. İfrit quşu götürüb evinə gətirir, qəfəsdə saxlayır. Quş bir gün qəfəsin qapısının açıq qaldığını görüb, uçur. Sevgilisini tapmaq ümidi ilə yorulmadan qanad çalır. Nəhayət ki, Ağoğlanın yaşadığı gözəl diyarı tapır. Amma o quş idi, Ağoğlan onu tanıya bilməzdi. Odur ki, quş Ağoğlanın ucaltdığı məbəddə özünə yuva tikir. Ağoğlan da quşa meyil edir. Onu gözdən qaçırmır. Amma bu yerlərdə də Ağoğlanı istəməyənlər tapılır. Yaz ayında güllü-çiçəkli bir çəmənlikdə Ağoğlan çayın kənarında məclis qurub, gəlib-gedən səyyahlara, məbədi ziyarət edənlərə ehsan verərdi. O bu diyarda evlər tikər, bənnalığı ilə qazandığı bütün pullarını kasıb insanlara xərcləyərdi. Bir gün çayın kənarında aşpaz böyük bir qazanda ehsanlıq yemək hazırlayır. Yemək hazır olur. Aşpaz Ağoğlana və onunla bir süfrədə oturanlara yemək çəkmək istəyəndə quş aşpaza mane olur, qoymur ki, qazana yaxınlaşsın. Aşpaz hirslənib əlindəki çömçə ilə onu vurur, dönüb qazandan yemək çəkmək istəyəndə quş özünü qaynar qazana atır. Ağoğlan bunu görəndə donub qalır, quşun nə üçün belə etdiyini heç kəs başa düşmür. Aşpaz qazanı kənara boşaldır, qazandan quşdan başqa ölü bir ilan da çıxır. Sən demə, quş bunu bilib onların

zəhərlənməməsi üçün özünü qazana atıbmış. Ağoğlan bundan çox təsirlənir, quşu əlinə götürür, göz yaşları tökür. Tikdiyi məbədin divarının yaxınlığında onu basdırmaq istəyir. Həmin anda tilsim sınır, quş cildindən çıxır, əvvəlkindən də gözəl bir qız olur. Ağoğlan qızı tanıyır. Eldə özünə hörmət qazanan Ağoğlana camaat yeddi gün, yeddi gecə toy eləyir, muradlarına çatırlar. Tikdiyi məbəddə uzun illər birgə yaşayıb ömür sürürlər.

Həyatda xoşbəxt olmağa səbəb tapmayanlar düyanın gözəlliklərini görə bilməyənlərdir. Gözəlliklər içində yaşayanlar xoşbəxt insanlar olur. Ağoğlan da yad məmləkətdə, gözəlliklər yurdunda öz xoşbəxtliyini tapdı.

"Ağoğlan" məbədi V–VI əsrlərə aid alban monastırıdır. Laçın rayonunun ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə müxtəlif dövrlərdə dağıntılara məruz qaldığından IX əsrdə yenidən inşa edilərək monastır formasına salınmışdır.



# SINIQ KÖRPÜ NAĞILI

Günlərin bir günündə biri vardı, biri yoxdu. Allahdan başqa heç kəs yoxdu. Bir mahal vardı yer üzündə. Laləli, ceyranlı-turaclı düzləri, yamyaşıl yamaclı dağları, durnagözlü bulaqları, marallı-ceyranlı yaşıl meşələri baxanları heyran qoyurdu. İlxı-ilxı atları, sürü-sürü qoyunları saya gəlməzdi. Öz halal zəhmətləri ilə əkər, biçər, yaşayardılar. Kimsənin varında, dövlətində gözləri olmazdı.. Dəliqanlı igidləri at belində quş kimi səkər, qılınc oynadardılar. Dəmirçilər kəndi adlanırdı bu mahal. Öz işlərinin mahir ustası olan dəmirçilər qol gücü, zindan və alın təri hesabına düzəltdikləri qılıncları ilə ad çıxarmışdılar.

El yığışıb ağsaçlı bir müdrik insanı özlərinə başçı seçmişdilər. Adına Hacı Bədəl deyirdilər. Dünya dağılsaydı belə, onun bir sözünü iki edən olmazdı. Hacı Bədəlin hörməti hörmət, ehtiramı ehtiram idi. Qan-qada ilə işi olmazdı onun. Çalışardı ki, yıxılana əl tutsun, acın qarnını doyursun. Cavanlara həmişə düz yol göstərərdi. Deyərdi ki, dağlara yol çəkin, ağac əkin, obalara su gətirin. Nahaq qan axıtmayın, tər axıdın. “İşiniz uğurlu, yollarınız nurlu, aydın olar”, – deyərdi həmişə. Qocalar da, cavanlar da, kəndin ağsaqqalı da, qarasaqqalı da Hacı Bədəl kimi müdrikin sözlərini həmişə sırğa edərdilər qulaqlarında.  Amma xəbis, paxıl insanlardan Allah qorusun. Uzaq diyarlardan bura gələnlərin gözləri götürməzdi bu firavanlığı, bu bolluğu. Həmişə də bu iş savaşla yekunlaşardı, qan tökülərdi, neçə igid öz canını qurban verərdi el yolunda, yurd yolunda.



Bu kənd vüqarlı dağların qoynunda yerləşirdi. Dağların arasından kükrəyib axan Ağa çayının suyundan camaat hər işində istifadə edərdi. Hacı Bədəl bir gün kəndin adamlarını toplayıb dedi:

– Nə vaxtacan biz yadellilərlə vuruşub, öz igid oğullarımızı itirəcəyik. Gəlin o biri kəndlərlə birləşək, həmrəy olaq və onlara qarşı mübarizə aparaq.

Amma bu kəndi o biri kəndlərdən kükrəyən çay ayırırdı. Hacı Bədəl öz xərci hesabına kəndlərin arası ilə axan Ağa çayı üzərində körpü salmaq üçün camaatı topladı, fikrini bildirdi. Bütün mahal bu işə razılıq verdi. Kəndin camaatı əl-ələ verib, körpü saldı. Körpü kükrəyən, yaz gələndə yerə-göyə sığmayan, aşıb-daşan dağ çayının üstündə salındı. Heç vaxt ram olmayan, dəlisov dağ çayının üstündə salınan körpü tağbənd formasında, ortasında dayaqlar olmadan tikildi ki, kükrəyib daşan dağ çayı məcrasından çıxanda maneəsiz axsın.

Yadelli tayfa başçısının qızı neçə illər idi ki, Hacı Bədəlin oğlunu sevirdi. Onları bir-birindən yalnız düşmənçilik bağları ayırırdı. Günlərin birində bir ormanda görüşüb, öz eşqlərinə sadiq qalacaqlarına and içmişdilər. Qız bir gün oğlan paltarı geyinib, vəfalı qaravaşı ilə körpünü keçib sevgilisi ilə görüşmək istəyir. Çayın üstündə dayanmış cəngavər şübhələnir, onu sorğu-suala tutmaq istəyəndə niqablı pəhləvan qılınca əl atır. Döyüşdə cəngavərin vurduğu qılıncın zərbəsindən körpü iki bölünür, sınır və qız çaya düşür. Qızın başından dəbilqəsi düşür, uzun qara saçları suyun üzündə ilan kimi qıvrılır. Dəlisov çayın hökmdarı qızın gözəlliyi qarşısında ram olur, qızı sağ-salamat çayın sahilinə çıxarır. Mahalın başçısı Hacı Bədəl bundan xəbər tutur və qızı heç

bir xətər toxunmadan öz elinə qaytarmağı əmr edir. Qız and içir ki, məni öz elimə qaytarsaz, özümü həlak edərəm. Bu xəbər qızın atasına çatır. Gözünün ağı-qarası bircə balasından keçə bilmir. Ona görə deyirlər ki, övlad adamı düşmən qapısına da aparar. O, Hacı Bədəlin hüzuruna gəlib, düşmənçilikdən əl çəkdiyini bildirir. Aralarında barışıq olur. Müdrik el atası bir oğluna, bir də qıza baxır, əllərini alnına qoyub xeyli düşünəndən sonra deyir:

– Belə gözəl qız düşmənçilik yox, yalnız sülh yarada bilər.

Bu sözləri eşidən qızın yanaqları lalə kimi qızarır, ala gözlərində yaş damlaları parıldayır.

Müdrik tayfa başçısı öz elini başına yığır, toy tədarükü görmələrini əmr edir. Elə həmin gün toy tədarükü görülür. Yeddi gün, yeddi gecə toy edirlər. Onlar yeyib-içib yerə keçirlər, siz də yeyin, için, xoş gün keçirin.

Sınıq Körpü isə sonradan düzəlsə də, elin dilində “Sınıq körpü” kimi qalır.

İndi də bu körpü el arasında Sınıq körpü adı ilə məşhurdur. Körpü Qubadlının Dəmirçilər kəndindədir.





# ZƏNGİN YURDUN NAĞILI

Biri vardı, biri yoxdu, gözəl bir yurd vardı. Dağlar qoynunda yerləşən bu diyarın insanları xoşbəxtlik, firavanlıq içində yaşayırdılar. Buranın əsrarəngiz təbiəti ürəkləri oxşayırdı. Yamyaşıl sıx meşələri, ormanları, şipşirin meyvəli bağları, səfalı bulaqları, çayları bu insanları daha da mehriban, istəkli etmişdi. Kəndin bağları, əkinləri başdan-başa düzən, hamar, həm də olduqca münbit torpaqlarda idi. Bu diyarda yaşayan insanlar işləmək lazım gələndə hamılıqla işləyir, dincəlmək lazımdırsa, dincəlirdilər. Heç birinin evinin qapısında qıfılı olmazdı. Varlı-kasıb söhbəti bu diyara aid deyildi. İnsanlar çayın suyu ilə əkin sahələrini, bağlarını sulayır, bağ-bağatdan bol məhsul yığıb, firavan yaşayırdılar. Amma bir gün yurda gələn çay qurudu. Xəbər yayıldı ki, çayın suyunu bir əjdaha kəsib. Camaat bir-birinə dəydi. Meşələrə gedib-gəlmək qorxulu oldu.

Kənddə Yusif adlı ağıllı bir oğlan vardı. O qərara gəldi ki, əjdahanı öldürsün və camaatı bu bəladan qurtarsın. Odur ki, kənddə yaşayan nurani bir qocanın yanına məsləhətə getdi. Qoca dedi:

– Oğlum, əjdahanı öldürmək çox çətin olacaq. Çünki əjdahanın başında üç zınqırovu var, ona yaxınlaşmaq istəyəndə zınqırovlar tərpənir və əjdahanı xəbərdar edir. Həm də ki zınqırovlar çalınanda elə bədheybət səslər çıxarır ki, insan o səsdən dəli ola bilər. Gün doğandan sonra isə zınqırovlar tamam başqa səs salır, bu səsə



mal-qara sehrlənmiş, ram olunmuş kimi gedir və əjdaha hər gün on dənə inək, öküz yeyib, yatır. Əgər sən gün doğmadan, zınqırovlar çalınmadan onları qırıb atsan, bəlkə, əjdahaya qalib gələ bilərsən.

Bəli, Yusif yolçu yolda gərək deyib, atını yəhərlədi və üz tutdu meşəyə. Dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi, axır ki gəlib çatdı meşəyə. Hə, indi çayı keçib o üzdəki tərəfdə kəndə gələn çay yolunun üstündəki əjdahaya tərəf getməliydi. Amma gur axan çayı necə keçə bilərdi, fikir onu götürdü. Bu vaxt meşədə iki divbeçənin mübahisə etdiklərini gördü. Yaxınlaşıb nə baş verdiyini soruşdu. Dedilər :

– Bizə üç şey miras qalıb: xəncər, kilim və papaq. Amma nə qədər edirik, aramızda bölə bilmirik.

Yusif dedi:

– Axı bunlar nədir ki, ondan ötrü mübahisə edirsiz?!

Divbeçələrdən biri cavab verdi:

– Bunlar adi şeylər deyil, sehrlidir. Papağı başına qoysan, görünməz olarsan, kilimin üstündə istədiyin yerə uçub gedərsən, xəncərlə bir zərbəyə yeddibaşlı əjdahanı öldürərsən. Yusif özünü axmaqlığa qoyub dedi:

– Mən buna inanmıram.

Divbeçə dilləndi:

– İnanmırsansa, götür özün bax.

Yusif xəncəri əlinə götürüb, o tərəf-bu tərəfinə baxdı. Kilimin üstündə oturdu. Papağı başına qoydu, gözəgörünməz oldu və kilimə əmr etdi. Kilim onu çayın o üzünə apardı. Divbeçələr nə qədər qışqırdılarsa, bir xeyri olmadı.

Bəli, Yusif artıq gün doğmamış əjdahanın yanında idi. Bir azdan gün doğacaqdı. Odur ki, fürsəti fövtə vermək olmazdı. Kilimin üstündə uçub, əjdahanın düz başı üzərində dayandı. Xəncərlə bir zərbə ilə üç zınqırovu qırdı. Zınqırovlar cingilti ilə yerə tökülməmiş, xəncəri əjdahanın düz ürəyinə sapladı. Əjdahanın ağzından od püskürdü, getdikcə qüvvədən düşüb, od içində yandı.

Yusif  sevincək kilimin üstündə, xəncər əlində, başında papaq öz yurduna gəldi.

Çay öz gur suyu ilə kəndə yenidən sevinc gətirdi. Kənd camaatı yığışıb Yusifin şərəfinə qonaqlıq verdilər. Yedilər, içdilər, şənləndilər. Siz də yeyin, için, şənlənin. Yurdunuzu sevin. Göydən isə üç alma düşmədi. Çünki alma hələ yetişməmişdi. Yetişəndə gələrsiniz, birlikdə yeyərik. Siz sağ, mən salamat. Təki yurdumuz salamat, bol ruzili və zəngin olsun.

Danışdığım nağıldakı yurdun adamları bolluq içində yaşadılar. Tanrı bu yurda o qədər ruzi-bərəkət verdi ki, insanlar buranı Zəngin yurd  adlandırdılar. Yusifin iti xəncəri neçə-neçə yurduna sahib çıxmaq istəyənlərin canını aldı. Zəngin yurd zənginlik içində yaşadı. Beləcə, zəngin bir yurdun nağılı başa çatdı. İndi də belə zəngin yurdun yurdsevər qəhrəmanları var. Onlar yurdun insanlarının xoşbəxtliyi, firavanlığı üçün hər zaman əjdahalar, divlərlə döyüşə hazırdırlar.



# VƏFALI QARA KÖPƏK

(əfsanə)

Uzaq keçmişdə gözəl, sərvətləri bol bir məmləkətdə oğuz tayfaları yaşayardı. Qədim vaxtlardan bu tayfaların sakinləri dəmirçilik, qalayçılıq, misgərlik, dülgərlik, dabbaqlıq, xalçaçılıq, toxuculuq və dulusçuluqla məşğul olardılar. Tayfalar öz məşhur sənətkarları ilə seçilərdi. Murad adlı bir dulusçu kuzələrin, bardaqların, səhənglərin, cürdəklərin, parçların üstünə vurduğu naxışlarla ad çıxarmışdı. Murad tayfa başçısının qızı Mələyi sevirdi. Onun eşqilə yaşayır, qızıldan qiymətli əlləri ilə gildən düzəltdiyi qablara sehrli naxışlar vururdu. Az keçmir ki, tayfa başçısı bundan xəbər tutur. Murada xəbər göndərir ki, getsin öz tayını tapsın, onun dulusçuya verəsi qızı yoxdur. Və Mələyi bir başqasına nişanlayır. Bu xəbəri eşidən gündən Murad məmləkəti tərk edir, uzaq bir yola çıxır. Az gedir, üz gedir, dərə-təpə düz gedir, nəhayət, yaşıl otlardan köynək geyinmiş, döşünə rəngbərəng çiçəklər taxmış bir təpəyə çatır. Buranı özünə məskən seçir. Palıd meşəsinin arxasında, təpənin yuxarısında özünə bir ev tikir. Muradın tikdiyi evə ilan kimi qıvrıla-qıvrıla kəndin içindən keçən dar cığırla güclə qalxmaq olardı. O burada yaşadığı ilk gündən doğma torpağın ətrini duyur, xüsusi bir nəşə ilə sərinləməkdə olan yaz havasını ciyərlərinə çəkir, sinədolusu nəfəs alır. Bu təpədə gil çox olduğundan Murad dulusçu sənətini işlətməklə yaşamağa davam edir.



Muradın sevdiyi sənəti – dulusçuluğu məhəbbətlə döyünən ürəyinin harayına yetişir. Bu sənət ona həm sevinc, həm də kədər gətirir. Sarı gili əlində övkələyib ondan istədiyi formanı alırdı. Gil öz eşqinə sadiq qalmış bir aşiqin köməyinə çatmışdı.

Beləcə, Murad bütün qəlbini, varlığını bu sənətə bağladı. O, düzəltdiyi hər bir su qabında Mələyin surətini gördü. Əsrarəngiz naxışlarla bəzədilmiş səhəng, kuzə, bardaqların şöhrəti tez bir zamanda hər yerə yayıldı. Onun qablara vurduğu basma naxışlar göz oxşayırdı. Həm də dulusçu bu qablara sevgilisinin adını heç kimin oxuya bilmədiyi kufi xətti ilə yazardı. Gözəl naxışlar salan dulusçunun əl işləri pənah gətirdiyi bu gözəl diyarda məşhurlaşdı. Xəbərin ayağı qıvraq olar. Xəbər padşaha da çatdı. O dulusçunu sarayına dəvət etdi və dedi:

– Mən istəyirəm ki, mənim sarayımın divarlarına elə naxış vurasan ki, o naxışdan heç bir padşah sarayında olmasın.

Murad padşaha təzim edərək dilləndi:

– Padşah sağ olsun, mən adi bir dulusçuyam. Vurduğum naxışlar sevgimin rəmzidir, nişanədir. Onu yalnız su ilə dolan qablara çəkirəm ki, sevən ürəklərin yanğısını söndürsün. Divarlara rəsm çəkmək özgələrin işidir. Bu işi mən bacarmaram.

Şah Muradın cavabından bərk qəzəbləndi və onu sarayından qovdu.

Dulusçunun bir Qara köpəyi vardı. Vəfası ilə mahalda ad çıxarmışdı. Qara köpək dulusçunun özünü və evini göz bəbəyi kimi qoruyardı. Quş quşluğuynan onların həndəvərində uça bilməzdi. Murad da köpəyi sevər, əzizləyərdi. Həftədə bir dəfə bişmiş gil qabları ulağa yükləyər, bazara aparar, əvəzində özünə lazım olan ayın-oyun alardı.

Padşah çox kinli idi. O dulusçunun sözlərini heç cür uda bilmirdi. Odur ki, öz vəzirinə bir tədbir görmək üçün əmr etdi. Tez bir zamanda vəzir dulusçunun yaşadığı yeri öyrəndi və bir gün bazara getdiyini biləndə evini xaraba qoymaq üçün adamlarını göndərdi. Dulusçu evdə olmasa da, Qara köpək ordaydı. Vəzirin adamlarının dulusçunun evinə yaxınlaşdığını görən Qara köpək onların üstünə atılır, hamısını dişindən keçirir, onlar yaralanmış halda güclə qaçıb canlarını qurtarırlar.

Bunu görən vəzir şahın əmrini yerinə yetirə bilmədiyi üçün çox bikef olur, nə olursa olsun Qara köpəyi öldürməyi fikirləşir. Az keçmədən quşu gözündən vuran bir oxatan tapır. Oxatan, oxla Qara köpəyin ürəyindən nişan alır, atır və köpəyi öldürür. Vəzirin adamları dulusçunun evini, həyətindəki kürəni, bütün mallarını dağıdıb, sındırır, evini yandırıb kül edirlər.

Dulusçu axşam bazardan evə qayıdır. Evin yanmış, viran edilmiş görür. Vəfalı dostu Qara köpəyi axtarır, oxla vurulmuş cəsədini tapır. Xeyli ağlayıb, köpəyi təpədə basdırır.

Dulusçu həmin diyarı tərk edib gedir. Amma xalq həmin təpəni Qaraköpək təpəsi kimi tanıyır. Qərinələr keçsə də, itin vəfası ilə ad qazanan təpə hələ də dulusçunun yaşadığı təpə kimi tarixdə yaşayır.

Qaraköpəktəpə Azərbaycanın Füzuli rayonu ərazisində, Köndələnçayın sağ sahilində yerləşən arxeoloji tarixi abidədir.



# QIRXQIZ DAĞI ƏFSANƏSİ

Qədim zamanlarda Xocalı adlı bir diyar vardı. Bu obanın ərənləri zəhmətkeş, cəsur, qorxmaz idilər. Öz yurdlarını yadellilərdən qorumaq üçün möhkəm qala tikmişdilər. Yurda göz dikən yadellilər talançılıq, işğal yolu ilə onların malını-madarını, sərvətini əllərindən almaq istəyirdilər. Nəhayət, bir gün düşmən hiylə işlətdi. Güdükçülər qalaya gedən yolların çayın altından gedən lağım ilə qalaya çıxdığını öyrəndilər. Beləcə, onlar qalanı ələ keçirib, var-dövlətini talan etdilər.

Qalanın yaxınlığında yaşıl bir təpə vardı. Onun yamacları güllü-çiçəkli, dərələri bağlı-bağatlı idi. Qızlar, gəlinlər ilin bütün fəsillərində onun şəninə nəğmələr qoşar, yaşıl xalıya bənzər çəmənliklərinin gözəlliyindən həzz alardılar. Həmin gün şahın qızı öz qırx qaravaşı ilə gəzməyə çıxmışdı. Birdən onlar yadellilərin dağın ətəyindən onlara sarı gəldiklərini gördülər. Qırx qız düşmən əlinə keçəcəklərindən qorxub qaçmağa üz tutdular. Amma artıq düşmənlər çathaçatda şahın qızı Allaha yalvarır ki, onlara bir nicat versin. Allah onun duasını eşidir, həmin an dağ aralanır, onlar içinə düşürlər. O vaxtdan həmin dağa Qırx qız dağı deyirlər.



# TAĞLAR MAĞARASI ƏFSANƏSİ

(Xocavənd)

Çox-çox qədimlərdə bir kənddə iki yetim qardaş vardı. Qardaşlar bir qarın yeməkdən ötrü onun-bunun mal-qarasını otarardılar. Bir gün sürünü otararkən dağın başından güclü sel gəlir və mal-qaranı ağzına alıb aparır. Bunu görən qardaşlar sağ qalmaq ümidi ilə dağa tərəf qaçırlar. Sən demə, bunu edən sel əjdahası imiş. Qardaşlardan böyüyü çox ağıllı və güclü idi. Digəri isə tez özündən çıxan, dəlisov, hirsləndisə qarşısında heç kim dura bilməyən biriydi. Həmin o dəlisov qardaş, əjdahanı yerə yıxıb, əlindəki çomaq ilə başını əzir. Sonra iki qardaş əjdahanın mağarasını tapıb, mağarada yaşamağa başlayırlar. Dağlardakı heyvanlar mağarada yaşayanın əjdaha olduğunu bilib, bu yerlərdən uzaq qaçırlar. Qardaşlar meşədəki ağaclardan cır meyvə yeyir, çaydan balıq tutur, vəhşi dağ keçisi, maral ovlayıb, əhliləşdirib mağarada saxlayırdılar. Saxladıqları heyvanlara hər gün bir qardaş gözətçilik edirdi. Bir gün ağıllı qardaş təzəcə gözünü yummuşdu ki, mağarada iki siçanın söhbətini eşitdi. Siçanlardan biri o birinə deyirdi:

– Neçə vaxtdır ki, əjdahanın qorxusundan xəzinəni apara bilmirdik. Əjdaha öldü, indi isə dəli qardaşdan qorxmuruq, amma ağıllı bilsə, xəzinəmizin axırına çıxar.

Ağıllı Qardaş bunu eşidən kimi siçanları tutub qəfəsə saldı. Yeri qazıb xəzinəni çıxartdı. Yetimçiliklə böyüyən iki qardaş ömürlərinin axırına kimi o mağarada yaşadılar. Mağaranı tağlarla böldülər, hər qardaş bir tağda kefi kök, damağı çağ yaşadı.

İndi də Tağlar mağarasının üstündən quşlar uçanda tük salırlar. Dəlisov qardaşın əjdahanı öldürməsindən hələ də xəbər tutmayıblar.











# QARQAR DAĞI VƏ QARQAR ÇAYI ƏFSANƏSİ

(Xocalı)

Çox qədimlərdə ucadan-uca bir dağ vardı. Bu dağ qarayağışlı buludlardan yapıncı geyinərdi. Qışın qarlı-şaxtalı günlərində belə başında ildırımlar çaxardı. Bu dağa kim pənah apardısa, əli boşa çıxardı. Dağdan aralı bir çay axardı. Novruzun on dördüncü günündə elin qız-gəlinləri evlərindəki səməniləri bu axar çaya atar, niyyət edərdilər. Bu məmləkətin şahı çox zalım və qaniçən idi. Aman-zaman, gözünün ağı-qarası bir qızı vardı. Qızını vəzirin vecsiz oğluna vermək istəyirdi. Şahın qızı isə çobanın oğlunu sevirdi. Bir gün şahın qızı sevdiyi çoban oğlu ilə əhd-peyman bağlayır ki, bu diyardan qaçıb getsinlər. Bundan duyuq düşən vəzir xəbəri şaha çatdırır. Şah onların dalınca cadugər qarını və atlılarını göndərir ki, ya ölülərini, ya da dirilərini tapıb gətirsinlər. Çobanın oğlu sevgilisini dağın ətəyində gözləyirdi. Qız gəlib çaya çatanda onların dalınca gələn  cadugər qarı nə tilsim edirsə,  çayı kükrədir, çay şahə qalxır, qız çayı keçə bilmir. Allaha yalvarır ki, onu quşa döndərsin. Qız qarğa olub uçmaq istəyəndə, cadugar bir naqqa balığına çevrilib qarğanın ayaqlarından yapışır, onu suya çəkir. Qarğa "qarrr", "qarrr" qışqırır, naqqa onu udur. Şahın adamları isə dağın ətəyində sevgilisini gözləyən çoban oğlunu zəhərli oxla vurub öldürürlər. Həmin vaxtdan o çayın və dağın adı Qarqar qalır. Hər yazın əvvəlində donan çayın buzu əriyir, sevən çay öz suları ilə dağa çırpılır, sevgilisini axtarır.





# XUDAFƏRİN KÖRPÜSÜ ƏFSANƏSİ

(Cəbrayıl)

Keçmiş zamanlarda böyük bir mahalda dinləri bir, dilləri bir insanlar məskən salmışdılar. Tanrı bu mahala dünyanın heç bir yerində olmayan bütün sərvətləri bəxş eləmişdi. Buranın insanları da doğru dürüst idilər. Mahalın tən ortasından kiçik bir çay axırdı. Çayın suyu dayaz olduğundan insanlar çayı ulaqla, atla keçib bir-birinin evinə gedərdilər. Və bu mahalı da o tay, bu tay adlandırmışdılar. Bir gün fəlakət üz verdi. Güclü sel gəldi, çayın qırağındakı evləri yuyub apardı. Abbas kişinin qızı çayın o tayındakı evlərdə ərdə idi. Nəvələri isə nənənin-babanın görüşünə gəlmişdilər. Sel gələndə ana o tayda, balalar bu tayda qaldı. Ana balalarına qovuşmaq üçün fəryad qopardı. Amma gurultuyla axan çay onları qovuşdura bilmədi. Bir gün ana üzünü Allaha tutub yalvardı:

– Ya Rəbb, sən bizi yaradansan. Və mən də sənin izninlə o balalarımı yaratdım, indi bir möcüzə elə, məni balalarıma qovuşdur.

Səhəri gün, doğrudan da, möcüzə baş verdi. Çayın aşağı yatağında on beş tağlı, yuxarı yatağında isə on bir tağlı körpü göründü. Ana Allahına çoxlu dua edib, balalarına qovuşdu. O vaxtdan bu körpülər Xudafərin körpüsü adlanır. Yəni “Allahın yaratdığı” bu körpülər o vaxtdan bu günəcən nə qədər insanları görüşdürmüş, ayrılıq yollarını birləşdirmişdir.





# AZIX MAĞARASI ƏFSANƏSİ

(Xocavənd)

Uzun-uzun illər bundan əvvəl, hələ insanların qəbilə halında yaşadıqları vaxtlarda səfalı bir meşədə iki qəbilə var idi. İnsanlar təbiətin onlara bəxş etdiyi qidadan – meyvə, qoz, bitki köklərindən yeyər, vəhşi heyvanları ovlayardılar. Qonşu qəbilələr arasında daim yaşayış uğrunda mübarizə gedərdi. Qəbilə başçıları bir-biriləri ilə vuruşardılar. Havalar soyuyanda, şaxtalar düşəndə meşələrdə yaşayan qəbilə üzvləri heyvanları öldürüb mağaralarda, kahalarda, zağalarda yaşayırdılar. Ov üstündə qəbilələr bir-birilərilə qanlı döyüşlərə girərdi.

Bir qəbilədə digər üzvlərdən fərqli bir-birini çox istəyən ana və oğul vardı. Oğlu hər zaman anasını qoruyur, tapdığı yeməyi anası ilə bölürdü. Nəhayət, onlar bu haqsız müharibələrə dözməyib insanlardan qaçmaq, tənha yaşamaq qərarına gəldilər. Gedib qalın meşəliklə örtülən, iki qayalığın arasında yerləşən bir mağarada məskunlaşdılar. Ananın adı Az, oğulun adı İxo idi. Oğlu çox güclü, cəsur, döyüşkən idi. O, bir həmlədə aslanları, kərgədanları daşla vurub öldürər, özlərinə azuqə ehtiyatı görərdi. İxo özünü qorumaq üçün daşdan silahlar, sapand düzəltmişdi. Bir gün anası xəstələndi. Ov üçün İxo tək meşəyə üz tutdu. Ov dalınca bütün günü qaçdı, kərgədanla döyüşdə yaralandı, güclə ondan canını qurtardı, yorulub tamam əldən düşdü. Mağaraya gəlib çatanda dağdan böyük bir daş parçasının mağaranın ağzına düşdüyünü gördü. Daş mağaranın ağzını tamam bağlamışdı. Qışqırıb Az İxo dedi, amma xəstə ana, yəqin ki, ölmüşdü. Oğul Azixo deyib hayqırır, anadan bir səs gəlmədiyini görüb, həmin yeri tərk edir, qəbiləyə qayıdır. O vaxtdan bu mağara Azıx adlanır.







# DİVLƏR SARAYI ƏFSANƏSİ

(Cəbrayıl)

Çox-çox qədim zamanlarda bir oba vardı. Bu obanın insanları xoşbəxt və firavan yaşayırdılar. Onlar Allahın bəxş etdiyi yamyaşıl meşələrdən hər cür qış azuqəsi yığar, ov ovlayar, çaylardan balıq tutardılar. Bu obanın heç bir şeyə ehtiyacı yox idi. Buranın təbiəti, əsrarəngiz mənzərəsi, yaşıllıqları, meşələri öz möhtəşəmliyi ilə insanları valeh edirdi. Sanki Ulu Yaradan bu obadan heç nəyi əsirgəməmişdi. Yeraltı sərvətləri tükənməz xəzinə olduğu kimi, yerüstü sərvətləri də canlı və zəngin idi.

Bir gün obaya bədbəxtlik üz verdi. Meşənin ən səfalı yerində divlər peyda oldu. Meşəyə üz tutan insanlar onların şikarına çevrildilər. Otlağa gedən qoyun sürüləri, mal-qara da onların hədəfi oldu. Bu obada ox atmağı, qılınc tutmağı ilə ad çıxarmış Paşa adlı bir igid vardı. O çox götür-qoy edəndən sonra divləri öldürmək, obasını bu bəladan xilas etmək qərarına gəldi. Amma divlərin öhdəsindən necə gəlmək olardı. Onun nə atdığı oxlar, nə də vurduğu qılınc onlara təsir edə bilməzdi. Paşa qonşu obada yaşayan, hər şeyin əlacını bilən Əli Çələbi adlı pirani qocanın yanına gəlib, ondan məsləhət istədi. Pirani qoca igidə dedi:

– Əvvəlcə Diridağda yaşayan kərgədanı öldürməlisən. Sonra kərgədanın iç piyini çıxardıb divlərin mağarasının yaxınlığındakı ağacların başındakı budaqlara



elə asmalısan ki, gün düz onların üstünə düşsün. Yeddi gün ərzində piy əriyib damcı-damcı torpağa düşəndə torpaqdan gələn qoxu mağaranın ətrafına yayılacaq. Bu qoxunu divlər sevmir, odur ki, onlar mağaranı tərk edib qaçacaqlar.

Paşa pirani qocaya təşəkkür edib, altdan geyinib üstdən qıfıllandı, üstdən geyinib altdan qıfıllandı, üz tutdu Diridağa. Bəli, Diridağ sanki bir qan çanağı idi. Burada yaşayan kərgədanlar heç də divlərdən geri qalmırdı. Paşa nəyin bahasına olursa olsun, kərgədanlardan birini öldürməli idi. İki gün onların nəriltisindən Diridağa yaxınlaşa bilmədi, axırda qulaqlarına əski tıxadı ki, vahiməli səsləri duymasın. Bir az uzaqda rahat bir yer seçdi, yaxınlaşmaqda olan kərgədanı düz ürəyindən nişan aldı. Üçüncü oxdan sonra kərgədan tir-tap yerə sərildi. Dan yeri söküləndə Paşa kərgədanın qarnın, yırtıb, iç piyini çıxartdı, bir torbaya qoyub, öz obasına tərəf üz tutdu. Gün təzəcə doğmuşdu. Paşa divlərin yaşadığı mağaranın yaxınlığındakı ağaclara çıxıb piydən kəsib, budaqlardan asdı. Beləcə, mağara ətrafındakı ağaclardakı piylər qızmar günün şəfəqləri altında əriməyə başladı. İgid uzaqdan divlərə göz qoyurdu. Divlər mağaradan çıxan kimi "Adam-badam iyisi gəlmir? Yağlı badam iyisi gəlmir? Bəs bu nə iydir belə? " – deyib qaçmağa başladılar. Paşa iki gün ağacda gözlədi. Divlər tamam yox olandan sonra mağaraya yaxınlaşdı, yavaşca içəri girdi. Mağarada bir dənə də olsun, div qalmamışdı. Amma mağaranın içində çoxlu qızıl-gümüş, ləl-cəvahirat vardı. Divlər yığdıqları bütün qənimətləri bura daşımışdılar. Paşa obaya dönüb igidləri başına yığdı, divlərin xəzinəsini atlara yükləyib kəndə döndülər. Xəzinədəki qızıl, gümüş, ləl-cəvahiratı obada yaşayan insanlara payladılar. Oba yenə də firavan həyat

sürməyə başladı. Obanın insanları bu mağaranı “Divlər sarayı” adlandırdı, çünki bu qədər xəzinə yalnız şah saraylarında ola bilərdi.

Bu əfsanə Cəbrayıl rayonunun Dağtumas kəndi yaxınlığındakı “Divlər sarayı” tarixi abidəsi haqqındadır. Erməni işğalçıları 30 il özlərini div kimi hiss edib, bu mağarada məskunlaşsalar da, igid ərənlərimizin od püskürən nəfəsləri qarşısında tab gətirə bilməyib qaçdılar.









# HACI ƏLİ GÜNBƏZİ ƏFSANƏSİ

(Xocalı)

Çox-çox əvvəllərdə, qədim Aran torpağında qocaman bir diyar vardı. Bu diyar dağlar arxasında, bolsulu çayların sahilində yerləşirdi. Buranın ərənlərinə igidlikdə çatan olmazdı. Ərənlərin içində Əli adlı bığ yeri təzəcə tərləmiş bir igid vardı. Əli mahaldakı cavanlarla qurşaq yarışına çıxar, hamısının da kürəyini yerə qoyardı. Beləcə, bu diyar öz igid pəhləvanları ilə ad çıxarmışdı. Sizə kimdən deyim, kimdən danışım... Gözəl bir diyarda, çox-çox uzaqlarda, mənəm-mənəm deyən bir zalım padşahdan. Bu padşah sanki müharibə etmək, qan tökmək üçün doğulmuşdu. Ömrü döyüşlərdə keçmiş, bircə dəfə də olsun məğlub olmamışdı. Neçə-neçə padşahların dizlərini yerə vurmuşdu. Şəhərlər, obalar, mahallar dağıtmış, əldə etdiyi qənimətləri xəzinəsinə yığmışdı. Amma yenə də qana susayıb, gözü ac idi. Hər il ordusunun sayını artırır, yalnız torpaqlar tutmaq, evləri, obaları viranə qoymaqla həyat sürürdü. Onun əsgərləri dağlardan, düzlərdən qasırğa kimi ötüb keçirdilər. Bir gün şah yuxusunda görür ki, bir cavan uşaq onu yerə yıxıb xəncəri ilə başın kəsmək istəyir. Şah qan-tər içində yuxudan oyanır. Yuxu yozanı yanına çağırıb soruşur ki, bu yuxu nə yuxudur. Yəni bu dünyada onun kürəyini yerə vuran, qalib olan biri ola bilərmi? Yuxu yozan həm də rəmmal idi. Rəmmal deyir ki, bəs



filan yerdə Əli adlı bığ yeri təzəcə tərləmiş bir pəhləvan var, sən ona uduzacaqsan. Padşah hirslənir, rəmmalı zindana atır, özü isə qoşun götürüb həmin diyara gəlir. Həmin vaxt Əli meşədə idi, düşmən qoşunu atları dörd nala çapıb camaatı mahaldan meşəyə qaçmağa vadar qoymuşdu. Toz-tozanaq içində itən meşənin üz-gözünə elə bil kəfən çəkilmişdi. Deyirlər ki, bir mıx bir nalı, bir nal bir atı, bir at bir igidi, bir igid bir eli qurtarar. Əli camaatın qırıldığını görür. Ərənlər döyüşlərdə ikən, arvad-uşaq meşələrə üz tutub dağlarda, kahalarda gizlənir. Əli ah-fəğan edən insanları eşidir, qılıncını götürüb sevdiyi qızın yanına vidalaşmağa gəlir. Əlini sevən qız ona deyir ki, sən igidləri başına topla, düşmən üzərinə arxayın get. Mən yumurta qabığında bütün qoşunu doyuran plov bişirərəm. Elə bir kilim toxuyaram ki, bütün igidlərin onun üstündə yerləşər, düşmənə göydən zərbə endirib qalib gələrsən.

Bəli, Əlinin başına toplaşan igidlər Əlinin sevgilisinin bişirdiyi plovdan yeyib gücləndilər. Dağ qüdrətli, qüvvətli oldular. Belə igidlərin qarşısında şahın qoşunu tab gətirə bilmədi. Hamısını Əlinin silahdaşları qılıncdan keçirdi. Sonda şahla təkbətək qaldı. Əli əvvəlcə şahla qılınc döyüşünə girdi. Yeddi gün, yeddi gecə vuruşdular, bir-birinə qalib gələ bilmədilər. Sonra qurşaq tutdular. Əli sevgilisinin ona verdiyi yaylığı cibindən çıxarıb ətrini aldı. Bir anda şahı iki əli ilə qaldırıb yerə çırpdı. Şah həmin dəqiqə canını tapşırdı. Beləcə düşmən öz əcəli ilə qırıldı. Mahalın ağsaqqalları yığışıb Əlinin şərəfinə qonaqlıq verdilər. İllər keçdi. Əli haqq yolunu tutub, Həccə getdi. Doğma yurdunda qızılı gümbəzli məscid tikdirdi. Məscidin gümbəzi günəşin şəfəqləri

altında bərq vururdı. O vaxtdan gümbəzli məscid Hacı Əli gümbəzi kimi yaddaşlarda qalır. İnsanlar azan səsilə camaat namazı qılmaq üçün məscidə gedir. Belə deyirlər ki, məscidə gedən insanların o yolda atdıqları hər addıma görə günahları silinir, məscidi tikənə isə o addımlara görə savab yazılır.

Söylənilən bu əfsanə Xocalıdakı XIV əsrə aid Hacı Əli günbəzi haqqındadır.

## MÜNDƏRİCAT

Ön söz ........................................................................................3


Özümdən özümə məktub (esse) ...............................................4


Şuşa nağılı ..................................................................................7


Ağ damlı evlərin çörəyi (nağıl) ..................................................11


Canyataq–Gülyataq qızılı (nağıl)................................................17


Ağoğlan nağılı.............................................................................21


Sınıq körpü nağılı........................................................................25


Zəngin yurdun nağılı ..................................................................29


Vəfalı qara köpək (əfsanə) .......................................................33


Qırxqız dağı əfsanəsi..............................................................37


Tağlar mağarası əfsanəsi (Xocavənd)..........................................39


Qarqar dağı və Qarqar çayı əfsanəsi (Xocalı) ..............................41


Xudafərin körpüsü əfsanəsi (Cəbrayıl)........................................43


Azıx mağarası əfsanəsi (Xocavənd).............................................45


Divlər sarayı əfsanəsi (Cəbrayıl) ................................................47


Hacı Əli günbəzi əfsanəsi (Xocalı)...............................................51

**ZAHİRƏ CABİR**
**Əvvəl Zaman İçində**
(nağıllar və əfsanələr)
Bakı, "Təhsil", 2022

---

**Müəllif**
Zahirə Cabir

**Naşir**
Tural Axundov

**Koordinator**
Bəxtiyar Həbibullayev

**Redaktor**
Sevinc Nuruqızı

**Rəssam**
Nərmin Abdullayeva

**Dizayner**
Mirəziz Sadıqzadə

**Korrektor**
Günel Məmmədova

Çapa imzalanmışdır 23.09.2022
Format 60x90 $^{1}/_{8}$. Fiziki çap vərəqi 7,0.
Sifariş 120. Tiraj 500.

**"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC**-nin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ1052, F. Xoyski küç., (121a) 149
e-mail: tahsil_az@yahoo.com
Tel.: (+994 12) 567-81-28/29